

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 aprel 2024-cü il №26 (2837) https://mod.gov.az Qiymәti 30 qəpik


## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi çatdırıram.

Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu bu ayda müsəlmanlar Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi zənginliyin fərəhini yaşamaq fürsəti qazanırlar.

Xalqımız taleyinin ən çətin dönəmlərində belə, öz tarixi köklərini, milli-mədəni dəyərlərini, adət-ənənələrini qoruyub saxlamışdır. İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanda dini bayram və mərasimlər hər il qeyd olunur və müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi təcəssüm etdirir. Builki Ramazan bayramı həm də otuz illik düşmən tapdağından azad edilmiş dədə-baba yurdlarımızda, Azərbaycanın bütün suveren ərazisində keçirilməsi ilə əlamətdardır.

Əziz bacı və qardaşlarım!

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq hissləri ilə yola salırlar. Ölkəmizin hər yerində xalqımıza xas xeyriyyəçilik və yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad edilir. Ümidvaram ki, dua və niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilərək cəmiyyətimizdə birliyi və həmrəyliyi daha da gücləndirəcəkdir.

Allah orucunuzu qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 aprel 2024-cü il

*Döyüş hazırlığı*

## “Komando olmaq xüsusi dözüm, iradə, fiziki güc və bilik tələb edir”



***Azərbaycan Ordusunda diqqət mərkəzində saxlanılan mühüm məsələlərdən biri də şəxsi heyətin döyüş vərdişlərinin artırılmasıdır. Müntəzəm olaraq keçirilən təlimlərin, məşğələlərin məqsədi də məhz hərbi qulluqçuların nəzəri və praktiki biliklərinin təkmilləşdirilməsi, mənəvi-psixoloji hazırlıqlarının formalaşdırılması şəxsi heyətin çətin coğrafi şəraitdə xidmətə hazırlanmasına yardımçı olmaqdır. Azərbaycan Ordusunda keçirilən hər bir təlimin, təlimdə tökülən tərin uğurlu nəticəsi Vətən müharibəsində qazanılan parlaq qələbədə öz əksini tapdı. Cəmi 44 günə hərbi qulluqçularımızın ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməsi, onların döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikalarından istifadə etmək bacarıqlarının yüksək səviyyədə olduğunu göstərdi.***

Vətən müharibəsində qazanılan şanlı Zəfərdən sonra orduya olan diqqət və qayğı daha da artırıldı. Döyüşlərdə qazanılan təcrübələr nəzərə alınmaqla döyüş hazırlığının daha da artırılması istiqamətində təlim məşğələlər intensivləşdi. Ordu quruculuğunda yeni islahatlar həyata keçirilməyə başlandı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun qardaş Türkiyənin ordu modelinə uyğunlaşdırılması istiqamətində mühüm işlər görülür. Orduda həyata keçirilən islahatlardan biri də peşəkarlığın artırılması, digər bölmələrlə qarşılıqlı tapşırıqların daha effektiv yerinə yetirilməsi üçün yeni komando hərbi hissələrinin yaradılması oldu. Müzəffər Ali Baş Komandanın belə hərbi hissələrdən birinin açılışı zamanı qeyd etdiyi "Yeni döyüş birləşmələrinin yaradılması, ilk növbədə, Komando Qüvvələrinin yaradılması döyüş qabiliyyətimizin artırılması üçün önəmli amillərdən biridir" fikri bu gün öz təsdiqini tapıb. Xüsusi kurslardan keçən, çətin relyefli ərazilərdə - dağlarda, meşələrdə döyüşmə, eləcə də şəhərdə yaşayış məntəqələrində terrorçu qruplaşmalara qarşı döyüş bacarıqlarına yiyələnən komandolar artıq ordumuzun ayrılmaz hissəsidir.

Komandoların hansı təlimlərdən keçdiyinin şahidi olmaq üçün bu dəfə yolumuz komando hərbi hissələrinin birinə oldu. Burada şəxsi heyətin taktiki təlimində bizə bələdçilik edəcək mayor İlkin Ağazadə ilə təlim meydançasına gəldik. Öyrəndim ki, mayor İlkin Ağazadə Vətən müharibəsi zamanı şücaəti ilə fərqlənən zabitlərimizdəndir. Müharibə zamanı iki dəfə yaralanıb, buna baxmayaraq müalicə aldıqdan sonra yenidən döyüş meydanına qayıdıb. O da xüsusi kurs keçən komandolardandır. Hazırda təlim mərkəzində komando olmaq arzusunda olan gənc hərbçilərə komando olmağın incəliklərini öyrədir.

"Komando olmaq xüsusi dözüm, iradə, fiziki güc və bilik tələb edir", - deyən zabit söhbətə başladı: "Komandoların əsas fəaliyyət istiqaməti çətin relyef şəraitində döyüş tapşırıqlarını icra etməkdir. Buna görə də komando olmaq istəyən hər bir hərbçi bütün çətinliklərə hazır olmalıdır. Azərbaycan Ordusunda komando bölmələrinin təşkili xüsusi təyinatlı qüvvələrlə birgə icra olunacaq əməliyyatlarda olduqca önəmlidir. Məhz Vətən müharibəsində xüsusi təyinatlıların fəaliyyəti onu göstərdi ki, bu qoşun növləri təlim və bacarıqlar hesabına sürətli əməliyyatlar üçün ən ideal bölmədir. Xüsusi təyinatlıların çevikliyinə, onların sürətli manevr imkanlarına adekvat olaraq birgə fəaliyyətin təmin edilməsi məqsədilə komandolar da xüsusi təyinatlı qüvvələr kimi çətin təlimlərdən keçirlər. Hərbi hissəmizdə komandolar əlbəyaxa döyüş növlərinə yiyələnməklə yanaşı, paraşütlə atlamaq, dağ xizəkçilik, snayper və müxtəlif fiziki hazırlıq kurslarından da keçirlər. Bundan başqa partlayıcı qurğuların hazırlanması və onların zərərsizləşdirilməsi, eləcə də müxtəlif atıcı silahlardan istifadə etmə bacarığına yiyələnirlər. Burada başlıca məqsədimiz hərbçilərimizi qarşıya qoyulan normativlərə uyğun hazırlamaq və onlara döyüş vərdişlərini aşılamaqdır", - deyə zabit bildirdi.

Təlimdə iştirak edən Beyləqan rayonunda anadan olan kiçik leytenant Elçin Möhübbətli altı ildən artıqdır ki, hərbi xidmətdədir. Vətən müharibəsi zamanı gizir hərbi rütbəsində olan Elçin taqım komandirinin müavini kimi döyüşlərdə iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb. Müharibədən sonra müvafiq kursda iştirak edərək “kiçik leytenant” hərbi rütbəsinə layiq görülüb. Öyrəndim ki, kiçik leytenant Elçin Möhübbətli komando olmaq üçün xüsusi kursdan keçib.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan Respublikasının müdafiə nazirinin Ramazan bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik, bərabərlik rəmzi olan Ramazan bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, müqəddəs və şərəfli xidmətlərinizdə uğurlar arzulayıram.

İslami dəyərlərin qorunduğu ölkəmizdə hər il dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Ramazan bayramı insanlar arasında bərabərliyi, birliyi daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığın, humanizmin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsini özündə təcəssüm etdirir.

Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə dövlət quruculuğu siyasətində azərbaycançılıq məfkurəsini, milli-mənəvi dəyərlərimizi yüksək tutaraq adət və ənənələrimizin qorunub saxlanmasını reallığa çevirdi. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasət nəticəsində dövlətçiliyimizin iqtisadi dayaqları möhkəmlənib, Azərbaycan demokratik dövlət quruculuğu prosesində böyük nailiyyətlər qazanıb. Dövlətimizin inkişafında prioritet istiqamətlərdən hesab edilən ordumuzun hərbi qüdrətinin gündən-günə artırılması məqsədilə atılan addımlar ölkədə həyata keçirilən islahatların əsas tərkib hissələrindəndir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycanın dünyada nüfuzu daha da artıb. Bu gün Azərbaycan Cənubi Qafqazın lider dövlətinə, sülhün, sabitliyin təminatçısına çevrilib.

Respublikamızın müdafiə qüdrətinin artırılması istiqamətində qazanılan böyük nailiyyətlər, eyni zamanda, orduda aparılan genişmiqyaslı islahatlar, sosial infrastrukturun gücləndirilməsi, hərbi qulluqçuların xidməti şəraitinin yaxşılaşdırılması, keçirilən təlimlər, düşmənin təxribatlarına qarşı aparılan uğurlu irimiqyaslı əks-hücum əməliyyatları şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirərək, 2020-ci il Azərbaycan Ordusunun tarixinə Zəfər ili kimi yazıldı.

Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində görülən işlər davam etdirilir. Möhtərəm Prezident, cənab Ali Baş Komandanın 28 dekabr 2011-ci il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Fərmanının icrasının təmin edilməsi məqsədilə 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara daimi mənzillərin verilməsi şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratmışdır.

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı parlaq qələbə və həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində düşmən işğalında qalmış tarixi torpaqlarımız azad olundu. Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi.

Ötən il Xankəndi şəhərində keçirilən 8 Noyabr - Zəfər Gününə həsr olunmuş Zəfər Paradı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun yenilməzliyini bir daha təsdiq etdi.

Dövlət müstəqilliyimizin əsas atributlarından biri sayılan üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı işğaldan azad edilmiş ərazilərimizdə rəşadətli Azərbaycan Ordusu öz mövqelərini daha da möhkəmləndirməklə, bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, Böyük Qayıdışa layiqli töhfələrini verməkdədir.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və Nizamnamələrə daim sadiq qalaraq, döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Hərbi Anda sədaqətə, çətin və şərəfli hərbi xidmətə fədakarlığa görə hər birinizə minnətdarlığımı bildirirəm.

Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bötövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsini hər zaman olduğu kimi Ramazan bayramı ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Şəhidlərimizin ailə üzvləri və sağlamlığını itirən döyüşçülərimiz, müharibə veteranları daima dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində mühüm addımlar atılır. Şəhid hərbi qulluqçularımızın valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Arzu edirəm ki, bu müqəddəs Ramazan bayramı gəlişi ilə ailələrinizə firavanlıq, xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.

Bir daha hər birinizi Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, Vətənə, müstəqil Azərbaycan dövlətinə şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

## "N" hərbi hissəsinin kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2024-cü il üçün təsdiq etdiyi hazırlıq planına əsasən, Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində "N" hərbi hissəsinin kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq xəritə üzərində icra ediləcək tapşırıqlar dəqiqləşdirildikdən sonra bölmələrin qarşılıqlı fəaliyyəti və qərargahların vahid idarəetmə orqanı kimi uzlaşması yoxlanılıb, eləcə də qəbul edilən qərarlara dair komandir heyətinin məruzələri dinlənilib.

Müasir və yüksək texnologiyalı kompüter proqramlarının tətbiqi ilə bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaq, eləcə də qərargahların fəaliyyətini və bölmələr arasında qarşılıqlı əlaqəni daha da təkmilləşdirmək məqsədilə keçirilən təlimdə qarşıya qoyulmuş tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

## Qubadlıda ermənilər tərəfindən qətlə yetirilən ukraynalı Oleq Babakın xatirəsi Poltavada anılıb




1991-ci il aprelin 7-də Qubadlı rayonunda Azərbaycanın mülki vətəndaşlarını erməni silahlılarından qoruyarkən qəhrəmancasına həlak olan Sovet İttifaqı Qəhrəmanı, ukraynalı leytenant Oleq Babakın xatirəsi doğulduğu Poltava vilayətinin Viktoriya kəndində anılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü ilə keçirilən anım tədbirində iştirakçılar əvvəlcə O.Babakın yaşadığı evə gələrək onun valideynlərinə baş çəkiblər. O.Babakın valideynləri Azərbaycan dövlətinin onların problemləri ilə həmişə yaxından maraqlandığını vurğulayıblar.

Sonra tədbir iştirakçıları O.Babakın dəfn olduğu qəbiristanlıqda onun məzarını ziyarət edib, üzərinə tər çiçəklər düzüb, xatirəsini ehtiramla anıblar.

O.Babakın Azərbaycanın Qubadlı rayonunda mülki şəxsləri erməni silahlılarından qoruyarkən göstərdiyi qəhrəmanlıqdan danışan səfirliyin hərbi attaşesi Əziz Nuriyev bildirib ki, o, yerli kənd camaatı ilə birgə təxminən 70 erməni silahlısının mühasirəsinə düşüb. Ermənilərin yerli sakinləri təhvil verib geri çəkilmək tələbinə məhəl qoymayan Oleq Babak heç bir azərbaycanlının əsir düşməsinə imkan verməyərək, son gülləsinə qədər qəhrəmancasına vuruşub və həlak olub. O, bu şücaəti nəticəsində yüzlərlə azərbaycanlının həyatını xilas edib.

"Oleq Babakın ruhu şaddır, çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz işğal altında olan torpaqlarımızı, o cümlədən Qubadlı rayonunu azad edib. Azərbaycan dövləti bütün şəhidlərin əziz xatirəsini hər zaman əziz tutur, onların ailələrinə yardımlarını davam etdirir", - deyə Əziz Nuriyev vurğulayıb.

Poltava vilayətinin Piryatin şəhər Şurasının katibi Sergey Pazyuk çıxışında bildirib ki, Oleq Babak Viktoriya kəndində orta məktəbi bitirdikdən sonra hərb yolunu seçib. O, qəhrəmanlığı ilə insanların sevgisini qazandı. O.Babak Azərbaycanda mülki şəxslərin həyatını xilas edib və qəhrəmancasına həlak olub. Onun əziz xatirəsi həm Azərbaycanda, həm də Ukraynada daim yad edilir. Azərbaycan xalqı Oleq Babakın göstərdiyi qəhrəmanlığı unutmayıb.



O.Babakın anası Nadiya Babak AZƏRTAC-a açıqlamasında onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. "Oleq Babakın xatirəsi Azərbaycan xalqı tərəfindən həmişə əziz tutulur, yad edilir. Azərbaycan dövləti bizə hər zaman yardım göstərir. Bu, bizə yaxşı yaşamağa kömək edir. Bizi unutmadığı üçün Azərbaycan dövlətinə təşəkkürümü bildirirəm", - deyə Nadiya Babak diqqətə çatdırıb.

Qeyd edək ki, Oleq Babak 1967-ci il fevralın 25-də Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində doğulub. SSRİ-nin Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlı 21-ci briqadanın siyasi hazırlıq üzrə bölük komandirinin müavini olan Oleq Babak 1991-ci ilin martından Azərbaycanın Qubadlı rayonunda ictimai asayişin qorunması tapşırıqlarını yerinə yetirib.

SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının leytenantı Oleq Babak SSRİ prezidentinin 1991-ci il 17 sentyabr tarixli Fərmanı ilə ölümündən sonra "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb.

# ƏÜO-da növbəti komanda-qərargah təlimi keçirilib

Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) növbəti komanda-qərargah təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, komanda-qərargah təliminin birinci mərhələsi bölmələrin müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilərək "Həyəcan" siqnalı ilə təlim rayonlarına çıxarılması ilə başlayıb.

Qoşunların səfərbərlik ehtiyatları ilə komplektləşdirilməsi üçün şəxsi heyət və texnikaların qəbulu məntəqələri açılaraq xüsusi ixtisaslar üzrə çağırılmış heyətin praktiki qəbulu həyata keçirilib. Açılmış məntəqələrdə müvafiq qeydiyyat aparıldıqdan sonra şəxsi heyət həkim müayinəsindən keçirilib, silah və digər zəruri təminat növləri ilə təmin olunub.



Açılmış səhra və stasionar döyüşü idarəetmə məntəqələrində üst komandanlıqdan alınmış tapşırığa əsasən, əməliyyatların planlaşmasına başlanılaraq optimal qərarın qəbulu üçün hərbi qərar qəbuletmə prosesinə uyğun fəaliyyətlər icra olunub.

Komanda-qərargah təliminə cəlb olunan tank, artilleriya, hava hücumundan müdafiə və xüsusi təyinatlı bölmələr verilmiş tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gələrək ümumqoşun bölmələrinin qarşısında duran tapşırıqların icrasına əlverişli şərait yaradıblar.

Təlimin gedişində xüsusi təyinatlılar tərəfindən şərti düşmənin dərinliyində, çətin keçidli dağ və qayalıq ərazilərdə müxtəlif kəşfiyyat tapşırıqları, o cümlədən şərti düşmənin vacib obyektlərinə basqın fəaliyyətləri yerinə yetirilib.

Təlimin ikinci mərhələsi qərargahlar tərəfindən qəbul edilən qərarların real ərazidə icra olunma mümkünlüyünü, komandirlərin döyüş meydanında tabelikdə olan bölmələrini idarəetmə bacarıqlarını, atəş-dəstək vasitələrinin effektiv istifadəsini və hərtərəfli təminatın döyüşün bütün mərhələlərində təşkili praktiki görmək məqsədilə Simulyasiya Mərkəzində kompüterlər üzərində oynanılması ilə keçirilib.

Təlimin yekununda əməliyyatların planlaşdırılmasında qərargahların hazırlıq səviyyəsi yüksək qiymətləndirilib və müxtəlif qoşun növü birləşmələrinin birgə fəaliyyəti nəticəsində qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanıb.







# “Komando olmaq xüsusi dözüm, iradə, fiziki güc və bilik tələb edir”

**(Əvvəli 1-ci səhifədə)**

Zabit təlim barədə geniş məlumat verdi. "Bildiyiniz kimi, istənilən bölmə döyüşə girəndə ərazidə mövcud olan maneələrə rast gəlir. Burada komandolara həm maneələrdən istifadə etməklə müdafiə olunmaq, həm də hücum zamanı həmin təbii maneələri necə aşmaq lazım olduğu öyrədilir. Döyüş meydanında qarşıya çıxan istənilən hədəfləri məhv edib, verilən tapşırıqları uğurla yerinə yetirərək düşmənə qalib gəlmək üçün bu bacarıqlar mühüm rol oynayır. Maneələr zolağında əsasən, ərazidə olan aşması bir qədər çətin maneələr quraşdırılıb. İlk maneə iki metr hündürlükdə olan taxta hasardır. Bu hasarı tam döyüş dəsti ilə təchiz olunmuş komandolar aşaraq növbəti maneələrə doğru irəliləyirlər. Dəlikli kərpic divarlarda, standart hasarlarda, yarım dağılmış binalarda, daş hasarlarda, örtülü ələqə yollarında və başqa maneələrdə döyüşçü özünü qarşıdakı düşməndən müdafiə etməklə eyni anda digər döyüşçü yoldaşının da irəliləməsinə şərait yaratmalıdır", - deyə zabit bildirdi.



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Orxan Ələsgərov Şəmkir rayonunun Təzəkənd kəndindən hərbi xidmətə çağırılıb. Vətən müharibəsi zamanı ordumuzun qazandığı parlaq qələbədən sonra hərbçi olmaq qərarına gələn Orxan məhz komando olmaq üçün müraciət edib. Fiziki hazırlığı yüksək olan O.Ələsgərov komando kursunda müvəffəqiyyətlə iştirak edib. Gənc komando xidmət etdiyi bölmənin onun əsl döyüşçü kimi formalaşmasında böyük rolu olduğunu xüsusi vurğuladı. "Komandirlərimiz tərəfindən peşəkar döyüşçü kimi formalaşmağımız üçün təşkil olunan atəş, taktiki, fiziki və psixoloji hazırlıq məşğələləri hər birimizi məğlubedilməz, güclü döyüşçüyə çevirib. Burada həm sinif, həm də çöl dərslərində, idman fəaliyyətlərində qarşımıza qoyulan məqbulları qazanmaq üçün əlimizdən gələni əsirgəmir, komando adını layiqincə daşımaq üçün səylə çalışırıq".



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şəhruz Eynili də Vətən müharibəsi iştirakçısıdır. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq döyüşlərdə iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görülüb. Əsgəri hərbi xidmətini bitirdikdən üç ay sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq ordu sıralarına geri qayıdıb. Qardaşı da hərbi qulluqçu olan Şəhruz bu şərəfli peşəni seçdiyinə görə qürurlandığını bildirdi.

- Komando olmaq qürurvericidir. Daim fiziki hazırlığımızı artırmaq üçün müasir standartlara uyğun olan idman şəhərciyindən, atəş və taktiki hazırlığımızı təmin etmək üçün təlim meydançasından istifadə edirik. Təlim meydançasında iyirmidən artıq maneələrin olduğu kəşfiyyat cığırından normativlərə uyğun olaraq təsdiq olunan vaxtda keçməyi bacarırıq. Bütün təlimlərimiz real döyüş şəraitinə uyğun keçirilir. Bu da bizi istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadir olan komandolar kimi hazırlayır, - deyə Şəhruz qeyd etdi.

Digər gənc komandolar da əzmlə Vətənə xidmət etdiklərini, xalqımızın onlara olan etimadını doğrultmaq üçün daim öz üzərlərində çalışdıqlarını bildirdilər. Söhbət əsnasında hərbi qulluqçularımızın dedikləri fikirlər, məşğələ zamanı göstərdikləri peşəkarlıq bizi bir daha əmin etdi ki, komandolarımız bu gün ordumuzun gücünə güc qatırlar. Onların hər biri xidmət müddətində öz peşəkarlığını artıraraq, hərb sənətini müasir dövrün tələblərinə uyğun qurmağa qadirdilər. Məhz təcrübəli komandolarımız sayəsində Vətən müharibəsindən sonra azad edilən torpaqlarımızda qeyri-qanuni silahlı dəstələrin və onların yuvalarının darmadağın edilməsi mümkün oldu. Əməliyyat tədbirləri zamanı ərazilərimiz Ermənistan silahlı birləşmələrinin qalıqlarından, terrorçu dəstələrdən təmizləndi, ərazi bütövlüyümüz tam təmin olundu. Əminik ki, bundan sonra da komandolar üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəklər.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**



# Aprel səhəri - Aprel Zəfəri



Tarix həm də təqvimdir, aylar il olur, illər tarix. Xalqın, dövlətin, dövlətçiliyin adına ad olan tarixi günlər həmişə ehtiramla xatırlanır, qürurla yaşadılır. Birinci Qarabağ müharibəsinin döyüşləri də tarixləşdi, Goranboy, Ağdərə, Horadiz əməliyyatları da. Ordumuz formalaşa-formalaşa döyüşürdü, döyüşə-döyüşə formalaşırdı. Böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra orduda əsaslı islahatlar həyata keçirildi, başlıca olaraq vahid komandanlıq yaradıldı. Bu, ordunun nizami ordu kimi formalaşması prosesini tənzimlədi...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin ordu quruculuğu siyasətini də uğurla davam etdirdi, ordunun yeni, daha müasir silahlarla silahlanması prosesi genişləndi, şəxsi heyətin döyüş hazırlığının artırılması üçün müxtəlif təyinatlı təlimlər keçirildi, mənəvi-psixoloji hazırlıq yüksəldildi, Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu daha da kükrədi...

Sülh danışıqlarından yayınan, regionda mövcud status-kvonu saxlamağa çalışan Ermənistan yeni ərazilər işğal etmək niyyəti ilə Azərbaycanın işğal olunan ərazilərində müxtəlif miqyaslı təxribatlar törədir, hücumlar edirdi. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan Ordusunun hissələri Ermənistan silahlı birləşmələrinin hücumunun qarşısını qətiyyətlə aldı. Ali Baş Komandanın döyüş əmri ilə ordu hissələrimiz əks-hücuma keçdi. Ermənistan siyasi və hərbi dəstəyindən bəhrələndiyi dövlətin aprel qələbəsini (28 aprel, 1920) təkrarlamaq istəyirdi, ancaq ordumuz Azərbaycan Demokratik Cümhuriyyətinin may (28 may, 1918) qələbəsini təkrarladı. Aprelin 5-nə kimi davam edən döyüşlərdə Lələtəpə, Bayraqtəpə kimi strateji əhəmiyyətli yüksəkliklər də daxil olmaqla, 2000 hektardan çox ərazi işğaldan azad edildi. Lələtəpədə qalibiyyət bayrağı dalğalandı. Qələbədən az sonra qələbə yüksəkliyində Aprel döyüşlərinin iştirakçısı Tahir Misirxanovla söhbətləşmişdik. Gizir döyüşlərdən, əsgərlərin döyüş əzmindən, qələbə ruhundan danışmışdı:

- Ali Baş Komandanın döyüş əmri ilə səngərlərdən döyüşlərə getmək istəyirdik. Lələtəpədən o tərəflərdə düşmənin müşahidə etdiyimiz mövqelərini, mövqelərinin hərbi güvənci olan dayaq məntəqələrini dağıtmaq, döyüşə-döyüşə irəliləmək istəyirdik. Ermənistan ordusunun hücumunu dəf etdik, əks-hücumla mühüm qələbələr qazandıq. Bu qələbələrin davamı işğaldan qurtuluş olacaq...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qətiyyətlə, qürurla demişdi ki, "Aprel döyüşləri dərsliklərə salınmalıdır". Həmişə istinad edilən ən mütərəqqi, ən dəyərli dərslik tarixdir - Azərbaycan Ordusu bu döyüşlərlə tarix yaratdı, tarix yazdı. Bu tarix sonrakı tarixlərin mənəvi (və hərbi!) başlanğıcı olacaqdı...

Lələtəpədən bir qədər uzaqlarda düşmənin texnikaları görünürdü. Yeni mövqelər, yeni mövqelərdə yeni səngərlər yaradırdılar; sülh danışıqlarından yayınan düşmən işğalın ömrünü uzatmağa niyyətliydi. Bunu görən əsgərlərimizin yumruqları düyünlənirdi, baxışları tündləşirdi...

Horadiz əməliyyatında işğaldan azad edilən Cocuq Mərcanlı kəndi düşmənin nəzarətindən uzaqlaşdırıldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Cocuq Mərcanlı kəndi yenidən quruldu, illərlə köçkün taleyi yaşamış sakinlər kəndlərinə köçdü...

Cocuq Mərcanlının yenidən qurulması, sakinlərin qayıdışı Böyük Qayıdışın başlanğıcı oldu...

Cocuq Mərcanlı məktəbinin şagirdlərinin Aprel qələbəsi haqqında dediklərini indi də xatırlayıram:

- Birinci Qarabağ müharibəsi əlili olan babam deyirdi ki, bu kənddən ola-ola sizin başqa kənddə oxumağınız atalarınızın qəddini əyir. Döyüş başlasın, ordumuz düşməni əzsin, kəndimizdə evlər, məktəblər bərpa olunsun, onda ruhumuz sıxıntıdan qurtaracaq, babalarınızın, atalarınızın qəddi düzələcək.

- Nənəm hər axşam kövrəkliklə bir bayatı deyərdi:

...Boynunu əyir ruhum,
Dizinə döyür ruhum.
Özüm burda qalmışam,
Mərcanlı deyir ruhum...

- Cocuq Mərcanlı işğal olunanda babam bir müddət evinin daşına-divarına baxıb, həyətindəki tut ağacına sarılıb. Sonralar evini uçulub-dağılmış görəndə hönkür-hönkür ağlayıb. Aprel qələbəsi babamın dərdini yumşaltdı, həmin tut ağacı indi də babamın dərd daşıdı...

Hərbi hissədə zabitlərdən biri yaddaqalan bir faktı xatırlatmışdı: - Döyüşlər başa çatanda taqım komandiri bildirdi ki, əsgərlərdən biri sizə müraciət etmək istəyir. Əsgər gəldi. "Komandir", - dedi. "Bu döyüş əmrinə görə əsgər yoldaşlarım adından Ali Baş Komandana minnətdarlıq etmək istəyirəm. Kaş işğalı tamamilə sona çatdıracaq döyüşlərdə də iştirak edə biləydik". Bu səviyyədə vətənpərvərlik də Aprel qələbəsinin qüruru ilə bağlı idi. O qürur 2020-ci ilin noyabrında daha əzəmətlə yaşanıldı...

Müəllimlər şagirdlərin vətənpərvərlik ruhunun daha da yüksəldilməsində Aprel döyüşlərinin müstəsna əhəmiyyəti olduğunu bildirmişdilər.

2016-cı il Aprel döyüşləri kimi tarixləşən döyüşlər Azərbaycan Ordusunun apardığı tarixi döyüşlərdəndir. Bu döyüşlərdə qazanılan qələbənin hərbi dəyəri ilə bir sırada böyük mənəvi dəyəri də olmuşdu - Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmri ilə işğalı Aprel qələbəsinin qüruru ilə sonlandırdı...

Aprel qələbəsi qazanan Azərbaycan Ordusu 2020-ci ilin noyabrında da, 2023-cü ilin sentyabrında da qələbələr qazandı, 2023-cü ilin sentyabrında Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etdi...

2016-cı ilin 1-5 aprel tarixlərində gedən döyüşlərə Aprel döyüşləri deyildi, bu döyüşlərdə qazanılan qələbəyə - Aprel qələbəsi...

2016-cı ilin Aprel döyüşlərini tariximizin Aprel Zəfəri kimi yaşadacağıq!..

**Mayor**
**Ceyhun CƏFƏRLİ**
**"Azərbaycan Ordusu"**

## Cəmşid Naxçıvanski adına Hərbi Liseydə orta məktəb direktorları ilə görüş keçirildi



Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumtəhsil üzrə Dövlət Agentliyi, Bakı şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi, eləcə də idarənin tabeliyində olan bir qrup məktəb direktorları Milli Müdafiə Universitetinin tabeliyində olan Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət etdilər. Qonaqlar əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Cəmşid Naxçıvanskinin liseyin ərazisində ucaldılmış abidələrini ziyarət etdilər.

Sonra qonaqlar liseyin ərazisi, yataqxana və yeməkxana, tibb məntəqəsi, idman şəhərciyi və hamam-camaşırxana kompleksi ilə tanış olaraq,kursantlar üçün yaradılan sosial-məişət şəraitini yüksək qiymətləndirdilər. Müasir təhsil sisteminə uyğun ən son əyani tədris vasitələri ilə təchiz olunan tədris korpusuna gələn qonaqlar xarici dil, informatika, riyaziyyat siniflərində, kimya laboratoriyasında oldular. Kursantlarla keçirilən dərsləri müşahidə edərək, maraq doğuran suallara cavab aldılar.

Tədbir iştirakçıları liseyin ərazisindəki Heydər Əliyev Muzeyinə gəldilər. 2018-ci ildə yaradılan bu muzeydə Ulu Öndər Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən guşələrlə tanış oldular. Məktəbəqədər və Ümumtəhsil üzrə Dövlət Agentliyinin direktor müavini, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən Nərminə Hüseynova muzeyin xatirə kitabına təəssüratlarını yazdı. Daha sonra Muzeyin akt zalında brifinq keçirildi. Burada qonaqlara liseyin yaranması, inkişafı, tədris prosesi, C.Naxçıvanskinin həyatı və sərkərdəlik fəaliyyəti haqqında məlumat verildi.

Milli Müdafiə Universitetinin rektoru polkovnik Gündüz Əbdülov bildirdi ki, 1971-ci ildə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan C.Naxçıvanski adına Hərbi Lisey internat məktəbinin bazasında yaradılıb. Ulu Öndər Heydər Əliyev Hərbi liseyə onun ilk əsərlərindən olduğu üçün övladı qədər məhəbbət bəsləyib. Müasir ordumuzun yaranmasında, güclənməsində və dünyanın ən qüdrətli orduları sırasında yer almasında bu məktəbin məzunlarının misilsiz xidmətləri danılmazdır. Hazırda ordumuzun aparıcı zabit heyətinin böyük hissəsi ilk hərbi təhsilini bu liseydə alıb. Rektor bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2022-ci ildə hərbi təhsil sistemində də əsaslı dəyişikliklər edilərək Milli Müdafiə Universiteti yaradıldı. Bütün hərbi təhsil müəssisələri universitetin tabeliyinə verildi. Hərbi təhsil sahəsində aparılan bu islahatlar uğurla nəticələndi. Bakı şəhəri Təhsil İdarəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən Nərminə Hüseynova Cəmşid Naxçıvanski adına Hərbi Liseyə tanışlıqdan, burada kursantlara yaradılan şəraitdən, hərbi təhsildən, zabitlərin qayğıkeşliyindən məmnun qaldıqlarını bildirdi. Hərbi liseydə olduqları müddət ərzində apardıqları müşahidələrin onlara xoş ovqat bəxş etdiyini dedi. Orta məktəblərdə vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi istiqamətində, həmçinin hərbi təhsil müəssisələrinə qəbulla bağlı təbliğat işlərinin aparılmasında birgə fəaliyyətin bundan sonra da uğurla davam edəcəyini vurğuladı. Sonda xatirə şəkli çəkildi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Aprelin 5-i saat 21:55-dən 23:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Müsürskənd, Basarkeçər rayonunun Aşağı Şorca, Yuxarı Şorca, Günəşli və Gorus rayonunun Ərəvus yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Əlibəyli, Daşkəsən rayonunun Xoşbulaq, Kəlbəcər rayonunun Yellicə, Zəylik və Laçın rayonunun Çağazur yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Qeyd edək ki, ötən sutka ərzində Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdə yerləşən bölmələri ümumilikdə 30 dəfə atəşə tutulub.

* * *

Aprelin 6-sı saat 18:30-dan 22:05-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək, Basarkeçər və Gorus rayonlarının Cil, Günəşli və Xoznavar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Gədəbəy, Kəlbəcər və Laçın rayonlarının Əyrivəng, Cəmilli və Hacılar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini ümumilikdə 16 dəfə olmaqla, müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Qeyd olunan bütün istiqamətlərdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

* * *

Aprelin 7-si saat 17:15 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Paşalı rayonunun Sultanbəy yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Şada yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub.

Qeyd olunan istiqamətdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

* * *

Aprelin 8-si saat 23:35-dən 23:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Xoznavar, Xanazax, Ərəvus yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Laçın rayonunun Sadınlar, Hüsülü, Malıbəyli və Çağazur yaşayış məntəqələri istiqamətlərindəki mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Qeyd olunan bütün istiqamətlərdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Narkomaniya bəşəriyyətin bəlasına çevrilib

Müasir dövrdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmaqdadır. Təəssüflə qeyd etməliyik ki, "ağ ölüm" adlandırılan bu bəlanın qurbanları durmadan artır. Bu öldürücü maddələrin pəncəsindən gec də olsa yaxa qurtarmağa çalışanlar tapılsa da, atılan addım hər zaman müsbət nəticə vermir. Çünki narkotik maddələrdən imtina etmək üçün insan güclü iradəyə malik olmalıdır. Dövrümüzün aktual, ağrılı problemi olan narkomaniya və onun fəsadları, ona qarşı mübarizə yolları ilə bağlı əhali, xüsusən də gənc nəsil arasında maarifləndirmə və təbliğat işlərinin aparılması mütəmadi olaraq davam etdirilir. Bu gün narkotik daşıyıcı olanların əksəriyyəti gənc nəslin nümayəndələridir. Bunun sonunda dayanan faciəni isə təsəvvür etmək belə qorxuncdur. Çünki gənclər hər bir millətin gələcəyi, dövləti inkişaf etdirən böyük və əsas qüvvədir.

"Ağ ölüm" adlandırılan narkomaniya insanları sağalmaz xəstəliklər məngənəsində boğur. Narkomaniya yunan sözüdür. "Narko" donub qalmaq, "maniya" psixi pozğunluq deməkdir. Adından da göründüyü kimi, bəşəriyyət uzun illərdir ki, onun törətdiyi dəhşətli fəsadlar qarşısında cavabı tapılmaz sualın mənəvi sıxıntısını yaşayır.

Narkomaniya bizə keçmiş sovet dövründən miras qalıb. O vaxt dövlət narkomaniyanın cəmiyyətdə mövcudluğunu hər vasitə ilə ört-basdır etdiyindən, narkotiklərlə bağlı cinayətlər barədə rəsmi statistik məlumatları kütləvi informasiya vasitələrindən və ictimaiyyətdən qapalı saxlayırdı, bu da özlüyündə müalicəsi çox çətin olan bu xəstəliyin getdikcə yayılıb kök atmasına səbəb olmuşdu. Respublikamız imperiya əsarətindən azad olub, öz müstəqilliyinə qovuşduqdan sonra bu ölüm kabusu ilə mübarizədə dövlət orqanları və ictimai təşkilatlar birgə fəaliyyət göstərməyə başladı.

Mütəxəssislərin fikrincə, narkotik ticarəti neft və silah alverindən sonra dünyada ən çox gəlir gətirən sahədir. Bəzi ölkələrdə, xüsusilə "narkomaniyanın vətəni" adlanan Əfqanıstanda onun ilbəil genişlənməsinə səbəb də elə budur. Əgər dünya birliyi ölkələri bəşəriyyəti ağır fəlakətlərə sürükləyən bu dəhşətli bəlanın yayılmasının qarşısını vaxtında ala bilməsə, o, yaxın gələcəkdə daha böyük ictimai faciələrə gətirib çıxara bilər.

Bəs narkotik nədir? Əhali, xüsusilə Vətənimizin gələcək qurucuları olan gənc nəsil onun törədə biləcəyi faciələri daha dərindən dərk etməlidir. Narkotik insanlarda mərkəzi sinir sisteminin təsir gücünü artıran bir dərmandır. Onu qəbul edənlər ən çoxu bir saat, yaxud saat yarım özlərini normal insan kimi hiss edə bilirlər. Çox keçmir ki, öləziyən bədənin çəkisi sanki getdikcə "azalır", fiziki qüvvə tükənir, ayaqlar hərəkət gücünü itirir, huş qeybə çəkilir, beyinin fəaliyyəti son dərəcədə zəifləyir və həmin şəxs normal insan düşüncəsindən məhrum olur. Bədəndə elə orqanlar var ki, onlar insanları hər cür yoluxucu xəstəliklərdən qoruyur, daha dəqiq desək, bir növ "cangüdən" rolunu oynayır. Narkotik maddələr qəbul edən insanlar özləri də bilmədən həmin orqanları zədələdiklərindən yoluxucu xəstəliklər onların iç dünyasına asanlıqla daxil olur. Narkotik maddələrin ən çox yayılmış növləri xaşxaş, kokain, nəşə, metazoan, tiryək, marixuana, heroindir. Bu narkotik maddələri bir və ya iki dəfə qəbul etdikdən sonra insanlarda yavaş-yavaş asılılıq yaradır. Hətta bəziləri narkotik maddə tapa bilmədiyindən ağrıya dözməyib özlərinə qəsd etmək məcburiyyətində qalırlar. Nəşə psixi xəstəliklər yaratdığından və narkomanlarda qorxu sindromu çox olduğundan onlar daim insanlardan qaçıb uzaqlaşmağa çalışırlar. Narkotik maddə təkcə onu qəbul edən



adamı məhv etmir, onun ailə üzvlərinin də sağlamlığına mənfi təsir göstərir. Narkotik maddənin satışı ilə məşğul olan insanlar "ölüm kabusları"dır. Böyük fransız təbibi Fransua Moriakın dediyi kimi, "narkomaniya insanın öz ölümündən həzz almasıdır". Narkomanlar özlərini bilə-bilə ölüm adlı kabusun qoynuna atanlar zümrəsidir.

Narkomaniyanın tarixi çox qədimdir. Hələ eramızdan əvvəl narkotik tərkibli vasitələr haqqında yunan, roma, ərəb alim və həkimlərinin əsərlərində rast gəlinirdi. Avropa və Asiya qitələrində məskunlaşmış xalqların mifologiyasında yağlı xaşxaş insanların ağrı və əzablarını azaldan vasitə kimi qəbul olunurdu. Xaşxaşdan alınan cirə, yəni, tiryək tibbi məqsədlər üçün istifadə edilirdi. Tiryəkli preparatlar orta əsrlərdə təbabətdə geniş yayılmışdı. Tiryəkdən hazırlanan dərmanlardan ruhi xəstələri sakitləşdirmək, əzabları azaltmaq, spazm və sarsıntıları aradan qaldırmaq, pozulmuş əsəb-sinir sistemini bərpa etmək kimi müalicə işlərində istifadə olunurdu.

Şərq ölkələrinə səyahətə çıxanlar tiryək istehsalçılarının acınacaqlı vəziyyətini görən zaman bunu yanlış olaraq, həmin xalqın ənənələri ilə bağlayırdılar. Hindistanı gəzən bir alim tiryəkdən asılılığı belə şərh edir: "Kim tiryəkə vərdiş edibsə, onu hər gün qəbul etməlidir". Dahi rus yazıçısı Lev Tolstoy deyirdi: "Mən dünyada iki böyük bədbəxtlik tanıyıram: bunlardan biri vicdan əzabı, o biri də sağalmaz xəstəlik olan narkomaniyadır".

Narkotik asılılığın elmi anlayışı barədə ilk dəfə məlumat XVIII əsrin əvvəllərində verilib. XX yüzilliyin sonunda narkomaniya ümumbəşəri bəlaya çevrilərək, müxtəlif xalqların genefonduna sarsıdıcı zərbələr vuran, qarşısıalınmaz bir təhlükəyə çevrildi. Eyni zamanda, narkotik maddələrin qanunsuz dövriyyəsi qazanc əldə etmək üçün başlıca vasitə oldu.

Araşdırmalardan aydın olur ki, narkotik maddələrdən istifadə edən insanlarda ilk əvvəl xoş hisslər yaranmağa başlayır və istifadəçilər bu aldadıcı təsirin, yəni, sevinc və enerjinin həmin maddələrdə olmasına inanmağa başlayırlar. Bu qənaətin yanlış olduğunu deməyə heç ehtiyac yoxdur. Əgər hər şey narkotik istifadəçilərinin düşündüyü kimi olsaydı, cəmiyyətin ən fərəhli, ən gümrah, öz karyerasında və şəxsi həyatında uğur qazanan insanları onlar olardılar. Narkotik aludəçisi olanlarla aparılan sorğular göstərir ki, ailədə və işdə yaranan problemlər, psixoloji zəiflik, düzgün seçilməyən mühit və digər müxtəlif səbəblər onları narkotikdən istifadəyə istiqamətləndirib. Əlbəttə, narkotikdən sırf əyləncə məqsədilə istifadə edənlər də var.

Cəmiyyətdə bir problem digərini yaradır. Düşünülməmiş atılan hər bir addım insanlara heç də hər zaman xoş nəticələr vəd etmir. Psixoloji problemləri olan insan da narkotikdən istifadə edərkən bu addımın onu uçuruma aparacağını, məhv edəcəyini düşünmür. Təəssüf ki, elə bədbəxtliklər də buradan başlayır...

Narkomanlıq insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına böyük təhlükə yaradan, həmçinin cinayətkarlığın artmasına səbəb olan əsas amillərdən biridir. Azərbaycan "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparmaq haqqında" Beynəlxalq Vyana Konvensiyasına 1992-ci ildə qoşulsa da, narkomanlıqla, narkobizneslə mübarizənin əsası ölkə tarixində ilk dəfə olaraq Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Dünyanın başı üzərində dolaşan bu dəhşətli ölüm kabusuna qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edən müdrik şəxsiyyət 1996-cı il avqustun 26-da "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında" imzaladığı Fərmandan sonra bu problemin həlli üçün həyata keçirilən tədbirlər kompleksi keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Həmin fərman əsasında 2000-ci ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə ümummilli Proqram hazırlandı. Bu bəşəri bəlaya qarşı mübarizə məqsədilə Dövlət Komissiyası yaradıldı. Azərbaycan 1998-ci ildə BMT-nin "Narkotik vasitələr haqqında" 1961-ci il və "Psixotrop maddələr haqqında" 1971-ci il konvensiyalarına da qoşuldu. Milli Məclisin 1999-cu il iyunun 18-də qəbul etdiyi Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, ölkəmizdə narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazırlanması qadağan edildi. Ulu Öndərin 15 iyun 2000-ci il tarixli Fərmanı ilə 2000-2006-cı illərdə narkomanlığın yayılmasına, narkotik vasitələrin, psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə daha bir Milli Proqram qəbul edildi. Bu proqramın tələblərindən irəli gələn məsələlərin həlli, həmçinin aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə xüsusi Dövlət Komissiyası yaradıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005 və 2007-ci illərdə imzaladığı tarixi fərman və sərəncamlar da "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi istiqamətində atılmış uğurlu addımlardan idi. Dövlət başçısı cənab İlham Əliyevin 24 iyun 2013-cü il tarixli 2966 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib.

Azərbaycan Respublikasının Prezidentinin 22 iyul 2019-cu il 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"ı Azərbaycan Ordusunda rəhbər tutularaq, bu istiqamətdə illik fəaliyyət planı hazırlandı, aidiyyəti dövlət orqanları, ictimaiyyət, QHT və KİV-lə birlikdə bu fəaliyyət planının yerinə yetirilməsi məqsədilə birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələrində, müəssisə və təşkilatlarda bir sıra tədbirlər həyata keçirildi, bu gün də keçirilməkdədir.

Azərbaycan Ordusunda xidmət edən gənclərimizə sağlam həyat tərzinin təbliğ edilməsi, narkomaniyanın törətdiyi fəsadlar barədə maarifləndirilməsi, mütəmadi olaraq dolğun, düzgün məlumatların çatdırılması məqsədilə "Bəşəriyyətin təhlükə mənbəyi narkomaniya", "Narkomaniya nədir?", "Narkomanın aqibəti", "Narkomanlıqla mübarizə hər birimizin vətəndaşlıq borcudur!", "Narkomaniyaya yox deyək", "Gənclər sağlam həyat tərzi seçir!", "Narkomanlığa və QİÇS-ə qarşı mübarizə mənəviyyatın xilası deməkdir" mövzularında təlim metodiki məşğələlər, tərbiyəvi iş saatları, konfranslar, "dəyirmi masa"lar və seminarlar təşkil olunur.

Qeyd edim ki, bu günlərdə Müdafiə Nazirliyi Hərbi Polis İdarəsinin 2-ci Hərbi Polis bölməsi və Abşeron-Xızı Regional Mədəniyyət İdarəsi Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzinin "Dostluq" Mədəniyyət evinin birgə təşkilatçılığı ilə Sumqayıt şəhər Poeziya evində "Ağ ölümə yox deyək!" adlı maarifləndirici tədbir keçirildi.

"N" hərbi hissəsinin hərbi qulluqçuları, 2-ci hərbi polis bölməsinin zabiti kapitan Qasım Hacıyev, müharibə veteranları, əlilləri, Sumqayıt şəhər Narkoloji Dispanserin şöbə müdiri həkim narkoloq Vüsal Cabbarov, Sumqayıt şəhər Regional Vəkillər Bürosunun vəkili Ruslan Mustafazadə, Sumqayıt şəhər Qadın Resurs Mərkəzinin rəhbəri Günel Ələkbərova, psixoloq Samirə İsmayılova, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin məsləhətçisi Bayram Cəfərli və "Dostluq" Mədəniyyət evinin direktoru Gülnar Məmmədovanın iştirakı ilə keçirilən tədbirdə bu gün bəşəriyyətin bəlasına çevrilən narkomaniyanın cəmiyyətdə ağrılı, faciəli sonluqlara yol açmasından geniş danışıldı. Onlar mütəmadi olaraq, "Zərərli vərdişlər və onların insan orqanizminə zərərli təsirləri" mövzusunda hərbi qulluqçular, gənclər və yeniyetmələr arasında maarifləndirici söhbətlərin aparıldığını, "Dəyirmi masa"ların, disput və diskussiyaların təşkil edildiyini diqqətə çatdırdılar.

Mədəniyyət ocaqlarında, elm-təhsil müəssisələrində belə tədbirlərin daimi olaraq keçirilməsinin, əyani vəsaitlərdən istifadə etməklə foto-sərgilərin təşkil olunmasının vacibliyini vurğuladılar.

Kapitan Qasım Hacıyev çıxış edərək bildirdi ki, ordu gənclərinin mədəni-asudə vaxtlarının səmərəli və düzgün təşkil edilməsi, sağlam həyat tərzinin təbliği məqsədilə hərbi hissələr, bölmələr və xüsusi təyinatlı təhsil müəssisələri arasında futbol, mini futbol, voleybol, boks, güləş, ağırlıqqaldırma, armvrestlinq (qol güləşi), kəndir dartma, şahmat, dama, estafet qaçışları, ərazidə səmti müəyyənetmə, bilik yarışmaları və intellektual oyunlar keçirilir. "Bu gün gənclər və yeniyetmələr arasında maarifləndirmə və tərbiyə işinin aparılması təkcə dövlətin üzərinə düşən məsuliyyət deyil. Eyni zamanda, bu məsuliyyətin mühüm bir hissəsi bütövlüklə cəmiyyətin, ordunun, hər bir vətəndaşın, ictimai qurum və təşkilatların, mətbuatın, internet resurslarının, sosial şəbəkələrin, mədəni-maarif müəssisələrinin üzərinə düşür".

Tədbirdə iştirak edən mütəxəssislər narkotik vasitə istifadəçilərinə hüquqi və psixoloji yardım metodlarından, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına böyük təhlükə yaradan, həmçinin cinayətkarlığın artmasına səbəb olan bu bəlanın fəsadlarından söhbət açaraq ətraflı məlumatlar verdilər. Sonra tədbir iştirakçılarının sualları cavablandırıldı, müzakirələr aparıldı.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində, uğurlu əməliyyat tədbirlərində düşmən üzərində parlaq qələbələri şəxsi heyətin sağlam ruhda, əzmli və iradəli olmasının, yüksək döyüş və mənəvi-psixoloji təminatının bir daha təsdiqidir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** 1941-1945-ci illərdə faşizmə qarşı aparılan mübarizədə Azərbaycan xalqının rolu

**Suallar:**

**1. Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması.**

**2. Azərbaycan İkinci Dünya müharibəsi illərində.**

**3. Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları.**

### Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması

İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövrü olmuşdur. Dünya ağalığı iddiasında olan alman faşizmi öz niyyətlərinə çatmaq məqsədilə 1939-cu il sentyabrın 1-də Polşaya hücum etməklə İkinci Dünya müharibəsinə başladı. 1941-ci ilin yayına qədər artıq alman faşistləri, demək olar ki, bütün Avropanı, Polşanı, Avstriyanı, Çexoslovakiyanı, Yuqoslaviyanı, Yunanıstanı, bütövlükdə Avropanın bir neçə ölkəsini və Fransanın xeyli hissəsini zəbt etmişdilər. Onlar Avropanın təqribən 290 milyon nəfər əhali yaşayan 2 milyon kvadratkilometr ərazisini ələ keçirmişdilər. Almaniya 1940-cı ilin ikinci yarısında SSRİ-yə "Barbarossa" adlı hücum planı hazırlamış və məqsədi 1941-ci ilin payızına qədər SSRİ-ni diz çökdürmək olmuşdur.

Faşist Almaniyası 23 avqust 1939-cu ildə imzalanmış, on il müddətinə hücum etməmək, dostluq və əməkdaşlıq haqqında müqavilələrini pozaraq, 1941-ci il iyunun 22-də bütün sərhəd boyu SSRİ üzərinə hücuma keçdi. Bu, Rusiyanın sovet dövrü tarixinə Böyük Vətən müharibəsi kimi daxil olmuşdur. Düşmənin yaxşı silahlandırılmış və hərtərəfli təlim keçmiş 5,5 milyonluq canlı qüvvəsi, yüksək hərbi texnikaya malik 190 diviziyası Barens dənizindən cənuba doğru uzanan 5 min kilometrlik ərazidə: şimal, mərkəz və cənub istiqamətlərində geniş əməliyyata başladı. Müharibənin ilk dövründə alman faşistləri Moskvaya qədər irəliləyərək sovet ordusunun 1,5 milyon canlı qüvvəsini əsir aldı. Eyni zamanda, faşist Almaniyası İtaliya, Rumıniya, Macarıstan və Finlandiya da daxil olmaqla, işğal etdiyi bütün ölkələrin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirdi. Faşist Almaniyası hərbi cəhətdən SSRİ-dən 1,5-2 dəfə güclü idi. SSRİ isə müharibəyə tam hazır deyildi. Ölkədə arxayınlıq hökm sürürdü, üstəlik, müharibə ərəfəsində keçirilən kütləvi-siyasi repressiyalar orduya böyük zərbə vurmuşdu. Sovet ordusunun komanda heyətindən 43 min nəfər repressiyaya məruz qalmışdı. Ordunun ali rütbəli heyətindən 1800 adam həbs olunmuşdu. 5 marşaldan 3-ü, 15 ordu komandirindən 13-ü, 57 korpus komandanından 50-si, 186 diviziya komandirindən 154-ü, 406 briqada komandirindən 220-si repressiyaya məruz qalmışdı. Məhz bunlara və digər səbəblərə görə faşistlər ilk vaxtlar böyük qələbələr qazandılar.

Müharibənin ilk mərhələsində antihitler koalisiyası formalaşdı. 1941-ci ilin yayında SSRİ, ABŞ və Böyük Britaniya arasında bir sıra müqavilələr imzalandı. Avqustun 2-də ABŞ SSRİ-yə iqtisadi yardım edəcəyi barədə qərarını bildirdi. 1942-ci ilin 23 fevralında ABŞ və Böyük Britaniya arasında təcavüzkara qarşı mübarizəyə qarşılıqlı yardım prinsipləri barədə saziş imzalandı. Faşizm əleyhinə kapitalizm və sosializm sistemlərinin vahid koalisiyası yaradıldı və 50 dövlət birləşdi.

Müharibənin gedişində əsaslı dönüşün yaranmasında Şərq cəbhəsində sovet qoşunlarının Stalinqrad (1942-1943) və Oryol-Kursk ətrafında alman ordularına qarşı keçirdikləri hərbi əməliyyatların müstəsna rolu olmuşdu. 1944-cü ilin əvvəlindən etibarən SSRİ qoşunlarının keçirdiyi bir sıra strateji hərbi əməliyyatlar nəticəsində almanlar tərəfindən zəbt olunmuş sovet əraziləri tamamilə azad edildi, döyüşlər Avropa ölkələrinə keçirildi. 1944-cü ilin oktyabrı üçün SSRİ-nin keçmiş sərhədi bərpa olundu. 1944-cü il iyulun 6-da Fransanın şimalına (Normandiya) qoşun çıxarılması ilə ikinci cəbhə açıldı. 1945-ci il aprelin 16-da Berlin uğrunda döyüşlər başlandı. Aprelin 25-də Elbada müttəfiq qoşunları görüşdü. Berlinin mühasirəsi başa çatdı. Mayın 2-də Berlin alındı. Mayın 8-də Almaniya danışıqsız təslim aktını imzaladı.

### Azərbaycan İkinci Dünya müharibəsi illərində

Zəngin sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan İkinci Dünya müharibəsində də iri dövlətlərin marağında mühüm yer tuturdu. Almaniya Bakı neftini ələ keçirməklə Şərqə - İran körfəzinə və Hind okeanına hərəkət etmək niyyətində idi. Hitlerin tapşırığı əsasında hətta Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin dəqiq xəritəsi də hazırlanmışdı.

Sovet Azərbaycanı isə SSRİ-nin tərkibində olduğuna görə hələ 1939-cu ilin payızından müharibəyə cəlb olunmuş, 1941-ci ilin iyunundan isə alman faşizminə qarşı müharibədə iştirak etmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: "İkinci Dünya müharibəsi, əvvəlki müharibələrdən fərqli olaraq, süvari və piyadaların deyil, ilk növbədə motorların, tankların, qırıcı və bombardmançı təyyarələrin, digər döyüş maşınlarının müharibəsi olmuşdur. Neft və neft məhsulları olmadan hərbçilər bu texnikanı hərəkətə gətirib düşmən üzərində qələbəni təmin edə bilməzdilər. Müharibə illərində Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq, silahlı qüvvələri kifayət qədər yanacaqla təmin edə bilmişdilər".

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdı. Müharibə illərində bütün Bakı ölkə neftinin 70-75%-ni, benzinin 85-90%-ni verirdi. 1941-1945-ci illərdə Bakı ölkəyə (SSRİ) 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Bakı döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmiş, "Katyuşa" raketi, "Şpakin pulemyotu" istehsal edir, burada "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Ümumən Bakıda 130-dan çox silah və ehtiyat hissələri hazırlanırdı.

Müharibə illərində Azərbaycanın elm xadimləri də müxtəlif problemlərin uğurlu həlli yolunda səylə çalışırdılar. Məşhur kimyaçı alimlərimizin, o cümlədən Yusif Məmmədəliyevin və başqalarının birgə səyi və əməkdaşlığı nəticəsində ən yüksək oktanlı benzin və sürtkü yağları növləri alınmışdır. Kimyaçı alimlər müharibə illərində 38 növ sürtkü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yağı istehsalını təşkil etmişlər. SSRİ-nin ən məşhur kimyaçı alimləri içərisində layiqli yer tutan Yusif Məmmədəliyevin qələbədə xüsusi rolu təqdirəlayiqdir. O, ən yüksək oktanlı təyyarə benzini, donmayan motor və sürtkü yağları, "Katyuşa" silahı üçün xüsusi mərmilər və başqa qiymətli komponentlər ixtira etmişdi. Keçmiş SSRİ-nin sabiq müdafiə naziri, Sovet İttifaqı marşalı, dörd dəfə Sovet İttifaqı Qəhrəmanı K.Y.Jukov öz memuarında yazmışdı: "Bakı cəbhəni lazım olduğu qədər yanacaqla fasiləsiz olaraq təmin edirdi". Rus şairi S.Mixalkov isə bu münasibətlə yazırdı: "Bakı nefti olmasaydı, heç bir tank, heç bir təyyarə yerindən tərpənməzdi, ölkədə istehsal olunan külli miqdarda hərbi texnika dəmir yığnağı olardı və qələbə qazanılmazdı".

Müharibə dövründə respublikamızın sənaye müəssisələri qələbə naminə cəbhəni lazımi məhsullarla aramsız olaraq təmin edirdilər. Azərbaycanın yüngül sənayesi cəbhənin ehtiyacları üçün təxminən 30, yeyinti sənayesi 50, yerli sənayesi isə 200 növə qədər məhsul istehsal edirdi. Ümumilikdə, cəbhəyə respublikamızda 125 vaqon isti paltar yollanılmışdı. Eyni zamanda, ordu üçün respublikamızdan dava-dərman, tibb preparatları və lazımi başqa dərmanlar da göndərilmişdi. Azərbaycan vətəndaşları 1941-1943-cü illərdə müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz vermişdilər.

Bir sözlə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Azərbaycan xalqı daha çox itkilərə və hədsiz məhrumiyyətlərə məruz qalmış, düşmən üzərində qələbə qazanılması üçün özünün var qüvvəsini əsirgəməmişdir. Azərbaycan xalqının misilsiz xidmətləri, qələbə naminə göstərdiyi fədakarlıq ermənipərəst İttifaq rəhbərliyi tərəfindən qiymətləndirilməmiş, hətta Azərbaycana qarşı ayrı-seçkilik, ikili standart tətbiq olunmuşdu. Bakı müharibə illərində cəbhəyə həm yanacaq verirdi, həm də hərbi texnika istehsal edirdi. Lakin bunun müqabilində Bakıya "qəhrəman şəhər" statusu verilmədi, keçmiş SSRİ-də Moskva, Leninqrad və Kiyevdən sonra iri şəhər olan Bakıya II və III dərəcəli status verildi, Tiflis və Yerevan isə I dərəcəli şəhər kimi ən yüksək dərəcədə təmin edildi.

### Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları

Ümumi əhalisi 3,4 milyon olan Azərbaycan "Böyük Vətən müharibəsi" kimi tarixə düşmüş 1941-1945-ci illər müharibəsində 640 minə yaxın oğlan və qız göndərmişdi. Böyük Vətən müharibəsi illərində Azərbaycanda yaradılan altı milli diviziya - 77-ci, 223-cü, 271, 396-cı, 402-ci və 416-cı diviziyalar şərəfli döyüş yolu keçərək Azərbaycan xalqının və Böyük Vətən müharibəsi tarixinə qızıl hərflərlə daxil oldu. Müxtəlif cəbhələrdə göstərdikləri rəşadətə görə 416-cı diviziya "Taqanroq diviziyası" (Taqanroqu azad etdiyinə görə), döyüşçülərinin əksəriyyətini azərbaycanlılar təşkil edən 227-ci diviziya "Temryuk diviziyası" (Taman yarımadasını azad etdiyinə görə), 77-ci diviziya isə "Simferopol diviziyası" (Simferopolu azad etdiyinə görə) adını qazanmışdılar. Bu milli atıcı diviziyalar Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər.

Cəbhə xətti üçün Azərbaycanda 15 min tibb işçisi, 750 rabitəçi, 3 min sürücü hazırlanmışdı. Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqları haqqında Ulu Öndər Heydər Əliyev demişdir: "Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir".

İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş həmyerlimiz Həzi Aslanovun, həmçinin İsrafil Məmmədovun, Mehdi Hüseynzadənin, Gəray Əsədovun, komandirinin həyatını xilas etmək üçün sinəsini düşmən güllələsinə sipər edən dənizçi Qafur Məmmədovun, Leninqradın müdafiəsi zamanı 17 ölümcül güllə yarası almasına rəğmən təyyarəsini yerə endirən Hüseynbala Əliyevin, qadınlarımızdan təyyarəçi Züleyxa Seyidməmmədovanın, snayperçi Ziba Qəniyevanın, gəmi kapitanı Şövkət Səlimovanın və başqa həmvətənlərimizin adları tarixə düşmüşdür. Qafqazın müdafiəsi uğrunda döyüşlərdə Ziya Bünyadovun bölməsi düşmənin xeyli canlı qüvvə və texnikasını məhv etmişdi. 1945-ci ilin yanvarında isə sovet ordusu Polşada döyüşdüyü zaman Ziya Bünyadovun başçılıq etdiyi bölüyün bütün döyüşçüləri Plitsa çayı üstündəki körpü uğrunda qeyri-bərabər döyüşdə göstərdikləri igidliyə görə təltif edildilər. Görkəmli tarixçi alim, akademik Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Rəşid Məcidov Brandenburq darvazası üzərində Sovet bayrağını dalğalandırmışdır. Faşizmə qarşı mübarizədə 121 nəfər Azərbaycan SSR vətəndaşı (onlardan 43 nəfəri azərbaycanlıdır) Sovet İttifaqı Qəhrəmanı adına, 30 nəfər "Şöhrət" (onlardan 15 nəfəri azərbaycanlıdır) ordeninin hər üç dərəcəsinə layiq görülmüş, 170 mindən çox azərbaycanlı əsgər və zabit isə müharibədə göstərdikləri igidliklərə görə müxtəlif orden və medallarla təltif olunub. Təkcə SSRİ-nin deyil, digər ölkələrin də faşizm işğalından azad edilməsində xüsusi qəhrəmanlıq göstərmiş əfsanəvi qəhrəman "Mixaylo" ləqəbli Mehdi Hüseynzadə kimi Azərbaycan övladları həm İtaliya, həm Yuqoslaviya, həm də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

1418 gün davam edən Böyük Vətən müharibəsi sovet xalqının sıx birliyinin və vətənə məhəbbətinin nümayişinə çevrilmişdi. Böyük qələbə, milliyyətindən asılı olmayaraq, xalqların kütləvi qəhrəmanlığının məntiqi nəticəsi idi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsindən sonra müharibə veteranlarının xidmətləri çox yüksək qiymətləndirilmiş, veteranlara dövlət qayğısı göstərmək haqda 1994-cü ildə fərman imzalanmışdır. Ölkəmizdə müharibə veteranlarına göstərilən diqqət və qayğı Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən bu gün də yüksək səviyyədə davam etdirilir. Bunu cənab İlham Əliyevin 1941-1945-ci illər müharibəsi veteranlarına, əlillərinə, həlak olmuş və sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, müharibə illərində arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə dövlət qayğısının artırılması haqqında verilmiş fərmanı, Qələbə günü münasibətilə hər il müharibə veteranlarının təbrik edilməsi və onlara verilən birdəfəlik yardımlar haqqında sərəncamları və yubiley medalları ilə təltif edilməsi buna əyani sübutdur.

XX əsrdə bəşəriyyət alman faşizmi ilə, Azərbaycan xalqı isə dörd dəfə (1905-1911, 1918-1924, 1948-1954, 1988-1994) erməni faşizminin vəhşilikləri ilə üzləşmişdir. Erməni daşnaklarının törətdikləri vəhşiliklər öz miqyasına və qəddarlığına görə heç də Böyük Vətən müharibəsində faşistlərin törətdikləri vəhşiliklərdən geri qalmamışdır. 1988-1994-cü illərdə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyünə göz dikən Ermənistan havadarları ilə öz istəyinə qismən nail olmuş, Azərbaycan Respublikasının Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan inzibati əraziləri işğal etmişdir. 2020-ci ilin Vətən müharibəsinədək və ondan sonrakı dövrlərdə də təxribatlar törədən, dinc sakinləri hədəfə alan azğın düşmən üzərində Azərbaycan Ordusunun əks-hücum əməliyyatları və 2023-cü ilin 19-20 sentyabrında antiterror tədbirləri heç vaxt erməni işğalı ilə barışmayacağını, daim döyüşə hazır olduğunu göstərdi. Babalarımızın Böyük Vətən müharibəsində, atalarımızın Birinci Qarabağ savaşında göstərdikləri qəhrəmanlıqları özlərinə örnək götürən qəhrəman Azərbaycan xalqının övladları Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında tarixi ədaləti bərpa edərək əzəli və əbədi torpaqlarımızı erməni işğalından azad etdi. Azərbaycanın parlaq qələbəsi dövlətimizin regionda söz sahibi olduğunu tam açıqlığı ilə nümayiş etdirdi.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Vətənpərvərlik Vətəni sevməkdir, Vətəni sevdirməkdir





"Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir. Fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət yetirilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu kəlamları məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsini də əhatələyir. Bu baxımdan "Şahin" hərbi-idman oyunları da əhəmiyyətlidir.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Şahin" hərbi-idman oyunlarının növbəti mərhələsi keçirildi. Yasamal rayonunun 20 məktəbinin komandaları arasında keçirilmiş yarışı Nizami rayonunun 22 məktəbinin komandaları davam etdirdi.

Yarışı polkovnik Müslüm Nəsirov açaraq qeyd etdi ki, bu yarış pedaqoji prosesin tərkib hissələrindəndir. Tədbirlərlə, söhbətlərlə aşılananlar belə yarışlarla genişləndirilir; Vətəni sevənlər həm də güclü olmalıdır - bu yarışda onların fiziki hazırlığı sınanır, vətənpərvər həm də savadlı olmalıdır, bu yarışda onun savadı, intellektual səviyyəsi də sınanır. Bu tədbir şagirdlərin özünəinam hissini də formalaşdırır. Yasamal rayonunun komandaları da yarışda məsuliyyətlə iştirak etdi, bu yarışlar Naxçıvanda da, C.Naxçıvanski adına Hərbi Liseydə də uğurla davam etdirilir. "Şahin" hərbi-idman oyunları yeniyetmələrin xarakterini formalaşdırmaqla, onların hərbi xidmətə marağını da artırır, onları bu xidmətə də hazırlayır. Sağlam rəqabət inkişaf deməkdir. Bu tədbirdə komandalar rəqiblərinin qabiliyyətlərini, bacarıqlarını görür, nələrisə mənimsəyirlər. Bu, inkişaf deməkdir. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyələrinə sədaqət deməkdir. "Şahin" hərbi-idman oyunlarının təşkilində və keçirilməsində iştirakçı olmaqla biz də gənc nəslin formalaşma prosesinin iştirakçısı oluruq...

Polkovnik Müslüm Nəsirov Nəsimi rayon İcra Hakimiyyətinin, Gənclər və İdman Nazirliyinin nümayəndələrini salamladı, komandalara uğurlar arzuladı. Bildirdi ki, yarışın hər mərhələsi münsiflər heyəti tərəfindən ayrılıqda qiymətləndiriləcək, qaliblər müəyyənləşdiriləcək.

Nəsimi rayon İcra Hakimiyyəti başçısının müavini Gülarə Verdiyeva çıxışında gənclərin, yeniyetmələrin, bu sıradan məktəblilərin milli-mənəvi dəyərlər əsasında formalaşmasında "Şahin" hərbi-idman oyunlarının böyük əhəmiyyəti olduğunu qeyd etdi, bildirdi ki, rayon İcra Hakimiyyəti bu kimi tədbirlərin keçirilməsinə həmişə böyük məsuliyyətlə, böyük istəklərlə yanaşır. Əminəm ki, rayonumuzun şagirdləri Azərbaycanımızı sevdikləri səviyyədə qoruyacaq da. Bu tədbir həmin əminliyin başlanğıcıdır.



İdman sektorunun müdiri Yusif Babanlı belə tədbirlərin mahiyyət baxımından dövlətin gənclər siyasətinin tərkib hissəsi olduğunu bildirdi və onların hərbi vətənpərvərlik xarakterini hərbi xidmətə hazırlıq mərhələsi adlandırdı. Bildirdi ki, gənc nəslin fiziki hazırlığı ilə bir sırada ilkin hərbi bilik və vərdişləri də öyrənmələri hərbi xidmətdə gərəkli olacaqdır. Bu tədbirin təşkilinə və keçirilməsinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə təmsil etdiyi qurum adından təşəkkürünü bildirdi, iştirakçılara uğurlar arzuladı...

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad olundu, Azərbaycan Respublikasının Dövlət Himni ifa edildi...

Tədbir başlama ərəfəsində məktəblilərin həyəcanlandığı da sezilirdi. Bu həyəcan belə tədbirlərdə ilk dəfə iştirakın da həyəcanı idi, iştirakın məsuliyyətinin də, qalib gəlmə istəyinin də. 159 saylı məktəbin şagirdi Aydan Behbudovanın yoldaşlarına dedikləri xatırlatma olsa da, onu tədbirə ehtiramın, məktəbin adına şöhrət gətirmə istəyinin ifadəsi bildim: Təmsil etdiyimiz məktəbə şöhrət gətirməliyik!...

46 saylı orta məktəbin komandasının "şahinlər"i hərbi hazırlıq müəllimi ehtiyatda olan baş leytenant Vaqif Abbasovun məsləhətlərini diqqətlə dinləyirdilər. Bu dinləmə yarış ərəfəsində yarışa hazırlığın sonuncu tövsiyələri idi.

Tədbir başladı. Orkestrin müşayiəti ilə komandalar sıra yerişi ilə tribuna önündən keçdikcə münsiflər onların, geyiminə, təmrinlərin səlisliyinə, sinxronluğuna diqqət yetirir, ümumilikdə bu mərhələni qiymətləndirirdi. Şagirdlərin baxışlarında çırpınan istəyi addımların ahəngdarlığı ifadə edirdi. Bu addımlar məktəbin "şahin"lərini təmsil edən oğlanların yaxın gələcəkdə hərbi xidmətdə sıra hazırlığının ilk addımlarının sədası idi sanki; sıra qıvraqlığı gözə də xoş gəlirdi, könülə də. Addımlarda ritm də vardı, ahəng də vardı, temp də...

Mahnı ifa etməklə sıra keçidi də maraqla izlənildi. Komandalar mahnı seçimində sərbəst olduğu üçün bəzi mahnılar təkrarlanırdı. Bu, nöqsan deyildi. Hər komanda mahnını özünəməxsusluqla ifa etdi. İfada sevgi vardı. Bu sevgi təkcə mahnıya sevgi deyildi, "şahin"lərin eyni məqsəd üçün toplaşdığı sıra meydanına ehtiramı idi, bu ehtiramın timsalında gələcək hərbi xidmətə sevgi idi. "İgid əsgər, möhkəm dayan!" da xoş ovqat yaratdı. Bu mahnıları digər məktəblərin komandalarının üzvləri də maraqla, sevgilərlə dinləyirdilər...

Hərbi idman oyunları yarışdır. Bu yarışma təntənəli keçidlərlə bir sırada müxtəlif sahələri də əhatə edir. Buna görə komanda yaradılanda hər amil nəzərə alınıb.

Komandalar üzrə müxtəlif sıra təmrinləri (dağılma-yığılma, bir cərgədən iki cərgə, iki cərgədən bir cərgə olma, yerində hərəkətlər, dönmələr) yerinə yetirilir. Şagirdlərin əmrləri yerinə yetirmə istəyi hiss edilləndir. Bu mərhələdən sonra 8 saylı orta məktəbin şagirdi Fatimə İbrahimzadə dedi ki, biz müəllimimizin rəhbərliyi ilə bu hərəkətləri dönə-dönə məşq etmişik. Hər birimiz ayrılıqda öyrəndiklərimizi sonra iki-iki, qrupla yerinə yetirməyi öyrənmişik. Ona görə də yarışda çaşmadıq. Əmrləri təntimədən, səlisliklə icra etdik. Ümid edirik ki, münsiflər bizə yaxşı bal verəcəklər.

"Şahin"lərin fiziki hazırlığı da sınandı. Turnikdə dartınma və qaçış. Qaçış iki istiqamətdə aparıldı - 200 metr məsafəni qızlar bayraqla, 50 metr məsafəni oğlanlar çox da ağır olmayan qum kisəsi ilə. İştirakçılar daha böyük yarışda iştirak edirmiş kimi iştirak edirdi, məsafəni hamıdan tez qət etmək istəyirdilər. Bu istək təkcə qaçışın qalibi olma istəyi deyildi, "Şahin" hərbi-idman oyunlarının final mərhələsinə keçidin istəyi idi. Oğlanlar da bu niyyətlə yarışırdılar. Buna idmanda mübarizlik deyirlər; "şahinlər" mübarizliyi ilə rəğbət qazanır - bu mübarizlik bütün iştirakçıların diqqətindəydi...

Qaçışı uğurla yerinə yetirdikdən sonra 211 saylı orta məktəbin şagirdi Jalə Hüseynova bu mərhələnin onlara uğur gətirəcəyinə inandığını bildirərək dedi ki, hər mərhələ vacibdir. Belə yarışlarda hərbi vərdişlərə bələdlik, onların rəvan yerinə yetirilməsi də əsasdır. Oğlanların qaçışı bir qədər çətin olsa da fərqlənəcəyik.

"Şahinlər" hərbi-idman oyunları iştirakçıların həm fiziki, həm də mənəvi hazırlığını artırır, onların xarakterində mətinlik yaradır, malik olduğu mətinliyi daha yüksək səviyyədə formalaşdırır. Bu oyunları hərbi xidmətə hazırlığın pedaqoji əsaslarla təlimi adlandıra bilərik...

Yarışın ən maraqlı mərhələlərindən biri də intellektual müsabiqə oldu. Buna biliklərin yarışı da deyə bilərik. Hər komandadan bir nəfər yarışırdı. Belə yarışlarda dərsliklərdən öyrənilənlər azlıq edir, əlavə ədəbiyyatlardan, internet məlumatlarından əldə olunan bilik də gərəkli olur. İştirakçının biliklər sistemi yarışın gedişində əsaslı dəyişiklik yaradır, komandaya uğur gətirir. İştirakçılar həvəsli idilər.

9 saylı orta məktəbin şagirdi Xəlil Xəlilov mərhələdən əvvəl demişdi ki, biz bu yarışa həm idman müəllimimizin, həm hərbi hazırlıq müəllimimizin, həm də digər fənn müəllimlərimizin rəhbərliyi ilə hazırlaşmışıq. Bu mərhələdə qalib gəlmək üçün geniş erudisiyaya malik olmalısan.

"Şahin" hərbi-idman oyunlarında Nizami rayonunun məktəbliləri də uğurla iştirak etdilər. Vətənpərvərlik Vətəni sevmək, Vətəni sevdirmək olduğu üçün klassik idman tədbirlərində deyildiyi kimi, başlıca məqsəd iştirakdır...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Rumıniyada "Sea Shield 24" təlimləri keçirilir



Rumıniya Hərbi Dəniz Qüvvələri aprelin 8-dən 21-dək "Sea Shield 24" çoxmilləti təlimlərini keçirəcək.

Rumıniya Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, təlimlərdə 12 NATO üzvü və tərəfdaş ölkə (Bolqarıstan, Böyük Britaniya, Yunanıstan, Gürcüstan, İtaliya, Moldova, Niderland, Polşa, Portuqaliya, ABŞ, Türkiyə və Fransa) iştirak edəcək.

"Sea Shield 24" bu il Rumıniya Hərbi Dəniz Qüvvələrinin rəhbərlik etdiyi ən əhatəli təlim olaraq ölkənin maraqlarını regional və beynəlxalq miqyasda təşviq etməyə, həmçinin iştirakçı dövlətlərin hərbi dəniz qüvvələri arasında qarşılıqlı fəaliyyət səviyyəsini artırmağa yönəlib.

## Zelenski: Ukrayna səmasını Rusiyanın raket hücumlarından qorumaq üçün 25 "Patriot" sistemi almalıdır



Ukrayna səmasını Rusiyanın raket hücumlarından qorumaq üçün 25 "Patriot" sistemi almalıdır.

Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski yerli KİV-ə müsahibəsində bildirib.

"Mən sizə nə qədər "Patriot" sistemlərimiz olduğunu deməyəcəyəm, lakin deyə bilərəm ki, Ukraynanın gələcəkdə səmasını bağlamaq üçün 25 "Patriot" sisteminə ehtiyacı var. Bütün tərəfdaşlarımız onsuz da bunu və hətta müvafiq sistemlərin harada yerləşməsi lazım olduğunu yaxşı bilir", - deyə Zelenski bildirib.

Zelenski, həmçinin qeyd edib ki, "Patriot"un analoqları Ukrayna üçün uyğun olardı. Onların kifayət qədər az olmasına baxmayaraq, işləyirlər.

## Dörd ölkə mübahisəli dənizdə birgə təlimlər keçirəcək



ABŞ, Avstraliya, Yaponiya və Filippin Cənubi Çin dənizində birgə təlimlər keçirəcək.

Təlimlər Pekinin iddia etdiyi mübahisəli dənizdə ABŞ Prezidenti Co Baydenin Filippin və Yaponiya liderləri ilə ilk üçtərəfli Zirvə görüşündən bir neçə gün əvvəl baş tutacaq.

Birgə bəyanatda bildirilir ki, birləşmiş müdafiə qüvvələri aprelin 7-də Filippin Eksklüziv İqtisadi Zonası daxilində təlim keçirəcəklər. "Dəniz Kooperativ Fəaliyyəti" adlanan təlimlərdə dörd ölkənin dəniz və hava qüvvələrinin bölmələri iştirak edəcək. Yaponiyanın Maniladakı səfirliyi manevrlərə sualtı qayıqlara qarşı döyüş hazırlığının da daxil ediləcəyini açıqlayıb.

Bu arada Avstraliyanın "HMAS Warramunga" hərbi gəmisi Filippinin Palavan adasına gəlib.

Qeyd edək ki, təlim Çin və Filippin gəmiləri arasında son aylarda Cənub-Şərqi Asiya ölkəsi yaxınlığında təkrarlanan qarşıdurmalardan sonra keçirilir. Pekin uzun müddətdir dəniz ərazi mübahisələrinin yaşandığı su yolunda gərginliyin artırılmasında Manilanı günahlandırır.

## Polşanın müdafiə naziri: 30 minədək hərbçi ölkənin Belarusla sərhədini qoruyur



Polşa ordusunun 30 minədək hərbçisi Belarusla sərhəd ərazilərin mühafizəsində iştirak edir.

Bunu ölkənin müdafiə naziri Vladislav Kosinyak-Kamış bildirib.

O, əlavə edib ki, Polşa dövləti bu məqsədilə 2024-cü ildə 215 milyon dollar ayıracaq.

Qeyd edək ki, 2024-cü ilin mart ayında Kosinyak-Kamış sərhədlərin mühafizəsində sərhəd xidmətinə dəstək məqsədilə ölkənin şərq sərhədlərindəki Silahlı Qüvvələrin sayını artırmaq planlarını açıqlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Gənc zabitlərimiz*

# Tarixin böyük günləri

*"N" hərbi hissəsində polkovnik-leytenant Ceyhun Məmmədov baş leytenant Elnur Ağayevi nümunəvi zabit kimi xarakterizə edərək bildirdi ki, o, Vətənə xidməti ömrünün mənası bilən zabitlərdəndir. Onun zabiti olduğu bölmə döyüş və mənəvi-psixoloji hazırlığına görə fərqlənir.*

Baş leytenant Elnur Ağayev Salyan rayonunun Sarvan kəndindəndir. Şəhid Yavər Qafarovun adını daşıyan məktəbdə təhsil alıb. Müəllimlərindən öyrəndikləri və tarix boyu baş verən müsibətlər, ermənilər tərəfindən həyata keçirilən kütləvi qırğın və faciələr onun həyat yolunu müəyyənləşdirib. Yeniyetməlik çağlarında Bakı şəhərində olanda dayısı Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alan kursantları göstərərək, "Sən də onlar kimi ola bilərsənmi?" - deyib. Elnur qətiyyətlə razılığını bildirib.



Elnur 2011-ci ildə müvəffəqiyyətlə imtahan verərək kursant adını qazanıb. 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. Zabitlərdən, müəllimlərdən hərb sənətinin sirlərini öyrənib. İntizamlı kursant kimi tanınıb. 2018-ci ildə "leytenant" hərbi rütbəsinin qürurunu çiyinlərində daşıyaraq xidmətə başlayıb. Həmin gün onlara Vətənin müdafiəsi kimi şərəfli, müqəddəs vəzifə etibar olunub.

"N" hərbi hissəsində gənc zabit Elnur Ağayev komandanlığın rəğbətini qazanıb. Tapşırıqları məsuliyyətlə yerinə yetirib. Bilik və bacarığını tabeliyindəki şəxsi heyətə öyrətməyə çalışıb. "N" hərbi hissəsində xidmətini uğurla davam etdirən zabit düşmən təxribatlarının qarşısının alınmasında həmişə böyük fədakarlıq nümayiş etdirib.

2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandanın əmri ilə əkshücum əməliyyatında iştirak edib. Goranboy-Ağdərə istiqamətində gedən döyüşlərdə düşmən qüvvələrinin məhv edilməsində yüksək fədakarlıq və rəşadət göstərənlərin sırasında olub. Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə şücaət göstərib.

Baş leytenant Elnur Ağayev hazırda "N" hərbi hissəsində xidmətini davam etdirir. Gənc zabit Vətən müharibəsindən sonra keçirilən əməliyyat tədbirlərində də fəal iştirak edib. Göstərilən etimadı layiqincə doğruldub.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan gimnastı Avropa çempionatında gümüş medal qazanıb




Tamblinq üzrə milli komandamızın üzvü Tofiq Əliyev Portuqaliyanın Qimarayeş şəhərində keçirilən batut gimnastikası, ikili-mini batut və tamblinq üzrə Avropa çempionatında gümüş medal qazanıb.

## Azərbaycanın daha bir güləşçisi Olimpiadaya lisenziya qazanıb



Azərbaycanın sərbəst güləşçisi Turan Bayramov Avropa Olimpiya Təsnifat turnirində yarımfinal görüşünə çıxıb.

74 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız italiyalı Frank Çamizo Markezlə qarşılaşıb. Rəqibinə əlavə vaxta qalib gələn Turan Bayramov "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya əldə edib.

Qeyd edək ki, daha əvvəl sərbəst güləşçi Hacı Əliyev (65 kiloqram) və Əliabbas Rzazadə ( 57 kiloqram), həmçinin Maqomedxan Maqomedov (97 kiloqram) Olimpiadaya lisenziya qazanıblar.

## Azərbaycanlı şahmatçılar beynəlxalq turnirdə qələbə qazanıblar



Serbiyanın Novi Sad şəhərində keçirilən "Beynəlxalq Şahmat Ustası" turnirində azərbaycanlı Əhməd Əhmədzadə, eləcə də Trinidad və Tobaqo Respublikasının bayrağı altında çıxış edən soydaşımız Alan-Səfər Ramoutar müvafiq olaraq birinci və ikinci yeri tutublar.

Yarışda 10 şahmatçı mübarizə aparıb. 9 raunddan ibarət olan turnirdə Əhməd Əhmədzadə 5 qələbə və 4 heç-heçə, Alan-Səfər isə 5 qələbə və 3 heç-heçə ilə yadda qalıb.

Hazırda şahmat üzrə beynəlxalq usta (International Master) olan Alan-Səfər Ramoutar qrossmeyster (Grandmaster) adı almaq uğrunda əzmlə çalışır.

Qeyd edək ki, Alan-Səfərin anası Emiliya Əhmədova yazıçı kimi fəaliyyət göstərir. O, "Broken Chains" ("Qırılmış zəncirlər"), "A Hell For All Seasons" ("Bütün mövsümlərdə cəhənnəm"), "My Twin Sister And Me" ("Əkiz bacım və mən"), "Caribbean Tears" ("Karib göz yaşları"), "Benji And Pals" ("Benci və dostları") adlı kitabların müəllifidir.

## Azərbaycanın 3x3 qadın basketbol millisi beynəlxalq turnirdə ikinci olub



Qadın basketbolçulardan ibarət 3x3 Azərbaycan millisi Tailandda keçirilən beynəlxalq turnirdə ikinci olub.

Yığma "Paris-2024" Yay Olimpiadasının təsnifat oyunlarına hazırlıq məqsədi daşıyan yarışın B qrupunda mübarizə aparıb.

Turnirin 14 final mərhələsinə yüksələn komandamız bu mərhələdə yerli "Sriraça Eagle"yə 21:11, Polşa "Lotto"suna 17:16 hesabı ilə qalib gəlib. Finalda Almaniyanın "Zoos" kollektivinə (17:15) uduzan yığma beynəlxalq turniri ikinci sırada tamamlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# "Hərbi qulluqçuların fiziki cəhətdən hazırlıqlı olması vacib şərtlərdəndir"



"N" hərbi hissəsində fiziki hazırlıq məşğələsinin gedişatı diqqətimi çəkdi. Komandirlərin rəhbərliyi altında kompleks şəkildə keçirilən məşğələdə hərbi qulluqçularımız bütün idman hərəkətlərin bacarıqla icra edirdilər. Dərs prosesi bitdikdən sonra qrup rəhbəri leytenant Hüseyn Bəşirzadəylə həmsöhbət oldum. Təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq, fiziki hazırlıq məşğələsinin gün ərzində iki dəfə - səhər və axşam keçirildiyini deyən zabit əlavə etdi ki, Müdafiə Nazirliyi rəhbərliyinin göstərdiyi diqqət və qayğı nəticəsində burada müasir standartlara uyğun formalaşdırılan idman şəhərciyi hərbi qulluqçularımızın idmanın müxtəlif növləri ilə məşğul olmasına geniş şərait yaradır.

- Torpaqlarımızın keşiyində duran məğrur hərbi qulluqçularımızın fiziki cəhətdən hazırlıqlı olması vacib şərtlərdəndir. Məhz bu baxımdan əsgərlərin hərtərəfli hazırlığına xüsusi diqqət yetirilir. Müasir döyüş əməliyyatlarını yüksək səviyyədə yerinə yetirmək üçün hər birimiz fiziki cəhətdən güclü olmalıyıq. Keçirilən məşğələlərin sayəsində əsgərlərimizin özünəinam və liderlik hissi artırılır. Bu səbəbdən də əsgərlərin fiziki hazırlığının artırılması hər zaman diqqət mərkəzində saxlanılır. İdman məşğələlərinin səmərəli keçirilməsi üçün bütün imkan və vasitələrdən istifadə edirik.

Kompleks çalışmalar barədə danışan qrup rəhbəri dedi ki, bu cür çalışmalar dözümlülüyü, çəldliyi, çevikliyi inkişaf etdirir. "Kompleks məşqlər əsasən iki variant üzrə keçirilir: birinci variantda sürətin inkişaf etdirilməsi üçün maksimum tempdə kiçik ərazi sahəsi dəf edilir. İkinci variantda hərbi qulluqçular sıçrama marşı və ya çətin keçilən ərazidə taktiki üsulları yerinə yetirməklə kros həyata keçirir, dözümlülüyün inkişaf etdirilməsi üçün təbii və ya süni maneələri dəf edirlər. Çəldliyin, həmçinin sürətli, ümumi və xüsusi dözümlülüyün inkişaf etdirilməsi üçün kompleks məşqlərin effektliliyini yüksəltmək məqsədilə qarşılıqlı və dairəvi estafetlər tətbiq olunur. Məşğələnin yekun hissəsində asta qaçış, yeriş, əzələlərin dərindən nəfəs almaqla boşaldılma çalışmaları yerinə yetirilir. Gərginliyin ötürülməsi, nəzarət üçün nəbzin tezliyi ölçülür. Əgər zədə almış hərbi qulluqçu varsa, ona yardım göstərilir, sonra nəticələr yekunlaşdırılır və növbəti məşğələyə hazırlıq üçün göstərişlər verilir".

Əsgər İsmayıl Şükürlü bildirdi ki, təcrübəli komandirlərimizin rəhbərliyi altında keçirilən fiziki hazırlıq məşğələləri döyüş hazırlığımıza müsbət təsir edir. Çünki fiziki hazırlıq hər birimizin iradəsini, dözümlüyünü, gücünü artırır. Həmçinin digər dərs və məşğələlərdə fəal iştirak edir, hərbi biliyimizi daha da zənginləşdiririk. Bütün bunların nəticəsidir ki, qarşıya qoyulan istənilən tapşırıqların öhdəsindən asanlıqla gəlməyə qadirik.

Astara rayonundan ordu sıralarına çağırılan əsgər Yalçın Fətullayev uzun zaman idmanın güləş növü ilə məşğul olub və dəfələrlə keçirilən çempionatların qalibi olub. Xidmətə başlamazdan öncə onun həyatda məqsədi - Azərbaycanın üçrəngli bayrağını digər dövlətlərin bayraqları arasında daim birinciliyə qaldırmaq olub. İnanırıq ki, o, müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra məqsədinə nail olacaq, bayrağımızı daim yüksəklərdə dalğalandıracaq. Xidmətdən öncə Yalçının düşündüyü məsələlərdən biri də xidmət zamanı idmanla necə məşğul olacağı olub. Hərbi hissədə yuxarı komandanlıq tərəfindən şəxsi heyət üçün yaradılan şəraiti gördüyü zaman çox sevinib. İdman fəaliyyətini burada da davam etdirib.

Əsgərlər Xalid Cəlilzadə, Anar Nüsrətov, Mirəyyub Kərimli və Fariz Aslanlının da fiziki cəhətdən hazırlıqlı olduğunu müşahidə etdim. Bir daha əmin oldum ki, səmərəli keçirilən döyüş, atəş və fiziki dərslərin nəticəsidir ki, şəxsi heyət tələmlər zamanı verilən əmr və tapşırıqların öhdəsindən layiqincə gəlirlər.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Süleymanov Nicat Ramiz oğluna məxsus AD № 0006764 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 144
Nüsxə 4650